**Dilleniidlər yarımsinfi – Dilleniidae**

**Çay sırası – Theales**

Sıranın nümayəndələri əsasən ağac və kol bitkiləridir, az sayda növləri ağacşəkilli lian, nadirən ot bitkiləridir. Sıra özündə 13 fəsiləni birləşdirir, tropik bitkilər üstünlük təşkil edirlər. ***Çay-Theaceae*** və ***dazı-Clusiaceae*** fəsilələri daha əhəmiyyətlidirlər.

**Dazı fəsiləsi – Clusiaceae** və ya **Guttiferae**

Başlıca olaraq ağaclar və kollarla təmsil olunmuş tropik bitkilərin böyük bir fəsiləsidir. Yalnız 2 cinsi ot bitkiləridir ki, onların da arealı mülayim iqlimli ölkələrdə yerləşir.

Fəsilə bitkiləri üçün səciyyəvi əlamət vegetativ orqanlarında ağ, sarı və ya yaşılımtıl rəngli (otşəkilli növlərində qətran tutqun qara rəngə boyanmışdır.) sxizogen xəznələrin olmasıdır.

Fəsilənin bitkilərinin yarpaqları sadə, suprotiv və tamkənarlıdır, yarpaqaltlıqlarına malikdirlər və ya yarpaqaltlıqları yoxdur. Çiçəkləri aktinomorf quruluşludur, ikicinsli və ya bircinslidir, ikievlidir, tək-tək yerləşmiş və ya çiçəkqrupuna (çətirşəkilli və ya qalxanabənzər) toplanmışlar. Ləçəkləri və kasayarpaqcıqları sərbəstdirlər, 4-5 (nadirən 14-ə qədər) ədəddirlər. Erkəkciklər çox saydadır, sərbəstdirlər və ya əsasında bitişmişlər. Dişicik 2-9 ədəd bitişik meyvəyarpaqcığından təşkil olunmuşdur. Meyvəsi çatlayan və ya çatlamayan qutucuq, şirəli giləmeyvə və ya çəyirdəkmeyvədən ibarətdir.

Bu fəsilənin (***dazı yarımfəsiləsi – Hypericaceae***) nümayəndələrindən ***adi dazı – Hypericum perforatum*** böyük tibbi əhəmiyyətə malikdir. Çoxillik ot bitkisidir. Uzununa yerləşən iki qabırğalı, suprotiv budaqlanmış çılpaq gövdəsi vardır. Yarpaqları uzunsov-oval formalı olub, uc hissəsi küt, kənarları isə tamdır. Çiçəkləri enli süpürgəşəkilli və ya demək olar ki, qalxanvarı çiçəkqrupuna toplanmışlar. Kasacığı beşbölümlüdür, tac 5 ləçəklidir, qızılı-sarı rənglidir, kənarında qara nöqtələr və xətlər vardır. Meyvəsi çoxtoxumlu, üçyuvalı qutucuqdan ibarətdir. Bitkinin tərkibində flavonoidlər, antrasen törəmələri, aşı maddələri və s. vardır.